# BAKI DÖVLƏT UNİVERSİTETİ

## 2021-ci ildə Psixologiya kafedrasında elmi plan üzrə yerinə yetirilmiş elmi-tədqiqat işlərinin nəticələrinin

# HESABATI

**Mövzunun adı:** **Şəxsiyyətin inkişafının və formalaşmasının tədqiqi məsələləri**

**Mövzu rəhbərinin soyadı, adı və atasının adı:**

**Mövzunun icra müddəti (başlama və bitmə tarixi):** **01 yanvar 2021-ci il - 01 yanvar 2022-ci il**

**Bakı - 2021**

**Mövzu üzrə icraçılar haqqında məlumat (icraçılar, birinci mövzu rəhbər yazılmaqla):**

| S/S | Soyadı, adı, atasının adı | Təvəllüd | Struktur | Vəzifəsi | Ştat vahidi | Elmi adı və dərəcəsi |
|---|---|---|---|---|---|---|
| 1. | Qədirova Rəna Həmid qızı | 26.08.1953 | “Psixologiya” kafedrası | Professor | 1 | Professor, psixologiya üzrə elmlər doktoru |
| 2. | Şəfiyeva Elnarə İbrahim qızı | 23.05.1962 | “Psixologiya” kafedrası | Professor | 1 | Professor, psixologiya üzrə elmlər doktoru |
| 3. | Vəliyev Mirələm Vəli oğlu | 25.10.1947 | “Psixologiya kafedrası” | Dosent | 1 | Dosent, psixologiya üzrə fəlsəfə doktoru |
| 4. | Babayeva Təranə Tofiq qızı | 10.07.1963 | “Psixologiya kafedrası” | Dosent | 1 | Dosent, psixologiya üzrə fəlsəfə doktoru |
| 5. | Bayramov İmdad Mustafa oğlu | 06.05.1963 | “Psixologiya kafedrası” | Dosent | 1 | Dosent, psixologiya üzrə fəlsəfə doktoru |
| 6. | Səməndərova Aydan Firudin qızı | 18.10.1977 | “Psixologiya kafedrası” | Dosent | 1 | Dosent, psixologiya üzrə fəlsəfə doktoru |
| 7. | Allahyarova Sevinc Ağavəli qızı | 30.09.1968 | “Psixologiya kafedrası” | Dosent | 1 | Dosent, psixologiya üzrə fəlsəfə doktoru |
| 8. | Quliyeva Sevinc Yəhya qızı | 29.04.1969 | “Psixologiya kafedrası” | Dosent | 0,5 | Dosent, psixologiya üzrə fəlsəfə doktoru |
| 9. | Əliyeva Səxavət Nəsrəddin qızı | 21.12.1972 | “Psixologiya kafedrası” | Dosent | 1 | Dosent, psixologiya üzrə fəlsəfə doktoru |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 10. | Mustafayev Azər Məhəmməd oğlu | 10.05.1960 | “Psixologiya kafedrası” | Dosent əvəzi | 1 | Dosent əvəzi, psixologiya üzrə fəlsəfə doktoru |
| 11. | Vəliyeva Yamən Əziz qızı | 15.01.1969 | “Psixologiya kafedrası” | Dosent əvəzi | 1 | Dosent əvəzi, psixologiya üzrə fəlsəfə doktoru |
| 12. | Kazımova Kamilə Qinyaz qızı | 30.03.1968 | “Psixologiya kafedrası” | Baş müəllim | 1 | Baş müəllim, psixologiya üzrə fəlsəfə doktoru |
| 13. | Mirzəyeva Aida Kazım qızı | 31.04.1975 | “Psixologiya kafedrası” | Baş müəllim | 0,5 | Baş müəllim, psixologiya üzrə fəlsəfə doktoru |
| 14. | Vəliyeva Validə İbad qızı | 26.05.1971 | “Psixologiya kafedrası” | Müəllim | 0,5 | Müəllim, psixologiya üzrə fəlsəfə doktoru |
| 15. | Nəsirova Nigar Ruslan qızı | 16.09.1986 | “Psixologiya kafedrası” | Müəllim | 0,5 | Müəllim, psixologiya üzrə fəlsəfə doktoru |
| 16. | Mustafayeva Mariam Abdurəhmanovna | 14.03.1966 | “Psixologiya kafedrası” | Müəllim | 1 | Müəllim |
| 17. | Sadıqov Elşən Misirxan oğlu | 19.06.1966 | “Psixologiya kafedrası” | Müəllim | 0,5 | Müəllim |

| 1 | **Mövzu və mövzu üzrə cari ildə yerinə yetirilmiş elmi işlər**<br>*Plan üzrə hər bir mövzunun, hər bir elmi tədqiqat işinin aktuallığı,məqsədi və alınmış elmi nəticələr ayrılıqda göstərilməli, ad soyad tam yazılmalıdır.* |
|---|---|
| | Mövzunun adı: Şəxsiyyətin inkişafının və formalaşmasının tədqiqi məsələləri<br>Mövzunun aktuallığı və məqsədi: Müasir dünyada insan həyatının dinamik şəkildə dəyişən reallıqları, cəmiyyətdə baş verən dərin dəyişikliklər şəxsiyyətin inkişafının psixoloji mexanizmlərinin və qanunauyğunluqlarının öyrənilməsini, onun praktik tərəfindən tədqiqini son dərəcə aktual edir. Mövzu daxilində şəxsiyyətin inkişafı və formalaşması problemi bir necə yeni yanaşmalara yol açan istiqamətlərdə tədqiq edilir. İdentikliyin təşəkkülü və narrativlərin quruluşu, peşəseçmə və özünütəyinetmənin formalaşması, şəxsiyyətin psixisağlamlığı və təlim-tədris prosesində idrak fəaliyyətinin şəxsiyyətin formalaşmasında rolu kimi məsələlər tədqiqatçıların diqqət mərkəzindədir. Tədqiqatın qarşısında duran məqsəd: cəmiyyətimizin sürətlə inkişaf etdiyi dövrdə şəxsiyyətin inkişafını və formalaşmasını şərtləndirən psixoloji mexanizmlərini və xüsusiyyətlərini müəyyənləşdirmək, təklif və tövsiyələr hazırlamaqdir.<br><br>**Elmi tədqiqat işi 1.** Şəxsiyyətin və identikliyin inkişafının narativ əsaslarının təhlili<br>**Elmi tədqiqat işi üzrə çalışan əməkdaşlar:** Professor Rəna Qədirova, Dosent Təranə Babayeva, Baş müəllim, psixologiya üzrə fəlsəfə doktoru Aida Mirzəyeva<br>**I mərhələ:** Problemin psixoloji ədəbiyyatda öyrənilməsi<br>**Aktuallığı**: Azərbaycanın Vətən Müharibəsində qələbəsi xalqın özünüdərkinə, hər bir fərdin özünüdərkinə təsir edən yeni reallıq yaratdı. Belə təsirin alətləri narrativlərdir, qələbə, qaliblər, sülh və müharibə haqqında hekayələrdir. Yeni həqiqətlər, vətənpərvərlik hisslərin artması ölkəmizdə yaranan multikulturar mühütünə təsir göstərir. Azərbaycan tarixən xalqların bir yerdə yaşadığı ölkə olmuşdur. Ona görə də multikulturalizm təcrübəsi Azərbaycanda heç də yeni tendensiya deyildir. Müxtəlif xalqlar, millətlər və dinlərə tolerant münasibət azərbaycanlıların milli mentalitetinə xas olan xüsusiyyətlərdəndir. Müasir şərayitdə cəmiyyətdə gedən özünüdərk prosesi, multikultural cəmiyyətə xas olan narrativlərinin quruluşunun araşdırmasını və onlardan istifadə yollarının gostərilməsini zəruri edir. Tədqiqatda qarşıya “yeni zaman” povestlərinin öyrənilməsi, narrrativ identikliyin inkişafının əsas tendensiyalarını araşdırılması vəzifəsi qoyulur. Bu baxımdan, “Şəxsiyyətin və identikliyin inkişafının narrativ əsaslarının təhlili” mövzusunun həm nəzəri, həm də praktik öyrənilməsi aktuallıq kəsb edir.<br>**Məqsədi:** Müasir cəmiyyətdə şəxsiyyətin və identikliyin inkişafının narativ əsaslarını araşdırmaq və onların quruluşuna dair tövsiyyələr hazırlamaq<br>**Alınmış nəticələr:** Şəxsiyyətin inkişafı şəxsi dəyərlər üfüqündə öz fəaliyyətini aktiv şəkildə qurmaq bacarığının formalaşması kimi başa düşülə bilər. Bu kontekstdə müxtəlif tipli narrativlər şəxsiyyətin formalaşması üçün alət rolunu oynayır. Narrativ mahiyyətcə təcrübənin linqvistik təsbitidir və hadisəni dərk etməyə imkan verir. Məhz narrativ vasitəsilə təcrübə hadisə kimi şərh olunur. Narrativ ona hadisə stsyusu verməklə bəzi məzmunu həyatın davamlı axınından ayırır.<br>Narrativ yaddaş materialına seçmə şəkildə yanaşır: ayrı-ayrı faktları birləşdirir, lazımsızları kənara qoyur, paralellər qurur, müxtəlif zamanların hadisələrinə aid xatirələri bir |

semantik bütövlükdə toplayır.

Nəticədə 5 əsas konfliktli narrativ janrı fərqləndirilib: “melodram”, “tragediya”, “romantika”, “apokaliptik” və “kiçik hadisələrin təqlidi”. Bunlar münaqişənin müxtəlif mərhələləri ilə əlaqəli ola bilər. Melodram və apokaliptik janr münaqişənin kəskinləşməsi və müharibə ilə uyğundur; romantika kütləvi səfərbərlik ilə, tragediya və kiçik hadisələrin təqlidi isə münaqişənin gərginləşməsi və həlli ilə uyğundur.

**Elmi tədqiqat işi 2.** Müasir dövrdə məktəbli mühitində bullinqə məruz qalanların şəxsiyyətini və psixoloji sağlamlığının tədqiqi

**Elmi tədqiqat işi üzrə çalışan əməkdaşlar:** Professor Elnarə Şəfiyeva, Dosent Sevinc Allahyarova, Dosent Aydan Səməndərova

**I mərhələ:** Problemin psixoloji ədəbiyyatda öyrənilməsi

**Aktuallığı:** Məktəbli mühitində bullinq fenomeni son zamanlar bir sıra ölkələrin təhsil müəssisələri üçün səciyyəvi olan və cəmiyyətdə narahatlığa səbəb olan çox ciddi problemlərdən biridir. Məktəb mühitində demək olar ki, hər bir şagird digər şagirdlərlə qarşılıqlı təsir prosesində ən azı bir dəfə bullinqin müxtəlif formaları ilə - məsxərə, qısnama, hədə-qorxu, birgə fəaliyyətdən təcrid etmə və s.- qarşılaşır. Özü də bir sıra hallarda bullinqə məruz qalan əksər şagirdlər bu haqda susmağa üstünlük verir, məktəb rəhbərliyi isə məktəbin imicini düşünərək daxildə baş verən bullinq situasiyalarını ictimailəşdirmir, bəzən isə görməzdən gəlir. Lakin yaşanılmış bullinq şagirdlərdə fəsadsız ötüşüb keçmir. İstər fiziki, istərsə də psixoloji baxımdan onlara cidd travma vurur. Belə ki, məktəb bullinqinə məruz qalmış yeniyetmələr tez-tez baş ağrısından, yuxu pozuntusundan, mədə-bağırsaq ağrılarından, qorxulardan, pis əhvaldan, depressiya və həyəcanın müxtəlif əlamətlərindən əziyyət çəkirlər. Bullinq qurbanlarında bullinqə məruz qalmayanlarla müqayisədə depressiya səviyyəsi daha yüksək olur, suisidal fikir və cəhdlər müşahidə edilir.

Bullinqin şagirdlərin fiziki və psixi sağlamlığına ciddi ziyan vurması, hətta bəzi hallarda intihara səbəb olması bu problemin tədqiqini, bullinq iştirakçılarını səciyyələndirən psixoloji xüsusiyyətlərin ətraflı öyrənilməsini, eləcə də bu istiqamətdə səmərəli psixoloji tövsiyələrin hazırlanmasını zəruri edir.

Bu baxımdan, “Müasir dövrdə məktəbli mühitində bullinqə məruz qalanların şəxsiyyətinin və psixoloji sağlamlığının tədqiqi” probleminin araşdırılması həm nəzəri, həm də praktik baxımdan aktuallıq kəsb edir.

**Alınmış nəticələr:** Məktəb bullinqi destruktiv şəxsiyyətlərarası qarşılıqlı təsirin bir forması kimi başa düşülür. Bu zaman bir şəxs yaxud qrup buller kimi, psixoloji, fiziki baxımdan zəif olan digəri isə qurban kimi çıxış edərək, uzun müddət, sistematik olaraq fiziki, psixoloji, emosional zorakılığa və aqressiyaya məruz qalır.

Məktəbli bullinqinə məruz qalmış uşaqlarda depressiya səviyyəsi dəfələrlə yüksək, özünüqiymtləndirmə səviyyəsi aşağıdır. Onlar baş ağrısından, depressiya və həyəcanın müxtəlif simptomlarından, yuxu, əhval və iştahla bağlı pozuntulardan əziyyət çəkir, intihara cəhd edirlər. Bullinqin izləri bu uşaqlarda həyatlarının sonuna qədər mühafizə olunur, bəzi hallarda isə onlarda ciddi posttravmatik stress pozuntusunun inkişafına səbəb olur.

**Məqsədi:** Məktəbli mühitində bullinqin səbəblərini və bullinqə məruz qalanların şəxsiyyətini, psixoloji sağlamlıq durumunu öyrənməklə, onun profilaktikası və psixokorreksiyası üçün tövsiyələr hazırlamaq.

**Elmi tədqiqat işi 3.** Tələbə gənclərin peşə seçimi və təhsil motivasiyası
**Elmi tədqiqat işi üzrə çalışan əməkdaşlar:** Dosent Mirələm Vəliyev, Dosent əvəzi Azər Mustafayev.
**I mərhələ:** Problemin psixoloji ədəbiyyatda öyrənilməsi
**Aktuallığı:** Yer üzündə 20 mindən artıq peşə vardır. Hər bir peşənin insan həyatında, onun fəaliyyətində xüsusi və mühüm əhəmiyyəti önəmlidir. Böyük məktəblilərin, eləcə də tələbələrin peşə seçimi diqqət cəlb edən önəmli problemdir. Xarici ölkə, həmçinin Azərbaycan psixoloqları bu istiqamətdə yetərincə tədqiqat aparmışlar. Həmin psixoloqlardan Amerika alimi C.Hollandın, rus psixoloqarı K.K.Platonovun, E.A.Klumovun, V.S.Maquşinin, Azərbaycan psixoloqları M.V.Vəliyevin, A.M.Mustafayevin, N.C.Sədirovanın, B.Y.Haqverdiyevin adını çəkə bilərik. Onların fikirlərinin öyrənilməsi və gənclərə çatdırılması məqsədəuyğundur.
**Alınmış nəticələr:** Xarici ölkə alimlərinin, eləcə də Azərbaycan psixoloqlarının probleme dair əsərləri, fikirləri təhlil olunmuş və gənclərin bu haqda biliyi təkmilləşdirilmişdir. Müəlliflər problemə dair bir sıra məqalələrlə mətbuatda, xüsusilə elmi əsərlər toplusunda çıxışlar etmişlər.
**Məqsədi:** Tələbə gənclərin peşə motivasiyasını müəyyənləşdirmək və onun təhsil motivasiyasına müsbət təsirini öyrənmək

**Elmi tədqiqat işi üzrə çalışan əməkdaş:** Dosent İmdad Bayramov
**I mərhələ:** Problemin psixoloji ədəbiyyatda öyrənilməsi
**Aktuallığı:** İctimai iqtisadi formasiyaların dəyişmısi insanlarda peşəseçimi ilə baglı problemlərin yaranmasına və həmin problemin elmi şəkildə aktullaşmasına şəbəb olumuşdur. İki ilə yaxın bir müddətdə davam edən pandemiya dövrü peşəseçimi problemini örənilməsini daha da aktuallaşmışdıt. .Peşənin insanın həyat və fəaliyyətində xüsusi və önəmli əhəmiyyəti vardır. Bu gün gənclərin qarşısımda duran ən mühüm problerdən biri də məhz peşəseçimi məsələsidir. Xarici ölkə alimlərinin bu problemlə baglı yetərincə tədqiqatlar aparmışlar. Həmin psixoloqlardan Amerika alimi C.Hollandın, rus psixoloqarı K.K.Platonovun, E.A.Klumovun, V.S.Maquşinin, adını çəkə bilərik. Həmin alimlərin fikirlərini təhlil edərək araşdırmaq müasir gəncliyin peşəseçimi məsələrində qarşısına çıxan problemlərin vaxtıda və yetərimcə aradan qaldırılmasına yardımç olması məqsədəuyğundur.
**Alınmış nəticələr:** Xarici ölkə alimlərinin fikirləri təhlil olunmuşdur.
**Məqsədi:** Tələbə gənclərin peşə motivasiyasını müəyyənləşdirmək və onun təhsil motivasiyasına müsbət təsirini öyrənmək

**Elmi tədqiqat işi 4.** Qadın məhkumların şəxsiyyətinin psixoloji xüsusiyyətləri

**Elmi tədqiqat işi üzrə çalışan əməkdaş:** Dosent əvəzi Yamən Vəliyeva
**I mərhələ:** Problemin psixoloji ədəbiyyatda öyrənilməsi
**Aktuallığı:** Qadın məhkumların şəxsiyyətinin tədqiq olunması, onun dəyərlər sisteminin və şəxsiyyətini səciyyələndirən fərdi psixoloji xüsusiyyətlərin öyrənilməsi müasir penitensiar psixologiyada öz aktuallığı ilə seçilən problemlərdəndir.

Qadınların cinayi davranışları bütün cəmiyyətə mənfi təsir göstərir, ona görə ki, bu cinayət onun əsas özəyi olan ailədə və mənəvi-psixoloji atmosferdə özünü biruzə verir.

Cinayət törətmiş qadınların psixoloji xüsusiyyətlərini öyrənərkən, qadın cinayətkarlığını tədqiq edən araşdırmaçılar zorakı cinayətlərin motivasiyasının tamahkar cinayətlərin motivasiyasından fərqli olduğunu müəyyən etmişlər.

Eyni zamanda qadın cinayətkarlığını tədqiq edən alimlər bu cinayətkarlığın əsasında psixoloji, sosial və bioloji xarakterli səbəblərin olduğunu qeyd edirlər.

Qadın cinayətkarların davranışında, emosional aləmində baş verən dəyişikliklər islah-əmək müəssisəsində nəzərə alınmır, halbuki məhkumu islah etmək, onun kriminal davranışını determinə etmiş psixi keyfiyyətləri dəyişmək, pozulmuş sosial dəyərləri onun vicdanı sahasinə daxil etmək dəməkdir. Məhz bunun üçün ilk növbədə hər bir qadın cinayətkarın şəxsi xüsiyyətlərinin psixodiaqnostikasını, psixi özünütənzimetmədəki qüsurları müəyyənləşdirmək tələb olunur və bu da uzun müddətli fərdi psixoloji-pedaqoji korreksiyanı, psixoterapiya tədbirlərinin keçirilməsinin qaçılmaz olduğunu göstərir.

**Alınmış nəticələr:** Tədqiqat işində qadın məhkumların şəxsiyyətinin psixoloji xüsusiyyətlərinin, xarakterik cəhətlərinin, tipologiyasının, qadın cinayətkarların şəxsiyyətinin mühut və s. amillərin təsiri nəticəsində formalaşması əldə olunmuşdur.Nəticədə qadınların cinayi davranışı sosial reallığın obyektiv və subyektiv amillərinin qarşılıqlı təsirləri ilə müəyyən edilir, onların arasında aparıcı rol ictimai nizam faktoru ilə müəyyən olunur. Müəyyən edilmişdir ki, müasir dövrümüzdə qadın cinayətləri cəmiyyətdə baş verən tarixi, iqtisadi, hüquqi, demoqrafik və digər dəyişikliklərdən birbaşa asılı olan sosial cəhətdən xarakterik xüsusiyyətlərə malikdir. Bu dəyişikliklər qadınların həyatının mikro-sosial atmosferində də aydın şəkildə əks olunur. Mikroiqtisadi mühitin mənfi təsiri qadınların həyatında müxtəlif tip cinayətlərin baş verməsinə səbəb olur ki,bu da həmçinin yaş, əmək fəaliyyəti, maliyyə vəziyyəti, ailə münasibətləri və s. kimi müəyyən sosial-demoqrafik amillərlə müəyyən olunur .

**Məqsədi:** Müxtəlif növ cinayət törətmiş qadın məhkumların şəxsiyyətinin psixoloji xüsusiyyətlərinin öyrənilməsi

**Elmi tədqiqat işi 5.** Təlimdə şəxsiyyətin inkişafına idrak fəaliyyətinin təsirinin tədqiqi
**Elmi tədqiqat işi üzrə çalışan əməkdaşlar:** Dosent Sevinc Quliyeva, Psixologiya üzrə fəlsəfə doktoru Validə Vəliyeva, Psixologiya üzrə fəlsəfə doktoru Nigar Nəsirova
**I mərhələ:** Şəxsiyyətin inkişafında idrak fəaliyyətinin rolu probleminin elmi ədəbiyyatda qoyuluşu
**Aktuallığı:** İdrak proseslərin formalaşdırılması gənc nəslin tərbiyəsində mühüm rol oynayır. Məhz buna görə aparılan tədqiqatların böyük hissəsi pedaqoji psixologiya, təlim

psixologiyası ilə bağlıdır. Bu mərhələdə qarşıya qoyulmuş məqsədə müvafiq olaraq problemin tədqiqi istiqamətləri araşdırılmış, şəxsiyyətin təfəkkürünün tənqidiliyinin,məntiqi yaddasaxlamasının araşdırılma istiqamətləri problemi ilə bağlı həm yerli alimlərin, həm də xarici psixoloqların tədqiqatları nəzərdən keçirilmiş, tələbə gənclərin idrak fəaliyyətinin araşdırılma istiqamətləri ətraflı şərh edilmişdir. Aparılan təhlillər "Təlimdə şəxsiyyətin inkişafına idrak fəaliyyətinin təsirinin tədqiqi" mövzusunun təlimin yeni reallığlarını nəzərə alınması baxımından öyrənilməsini zəruri və aktual edir.

**Alınmış nəticələr:** Müasir təhsil sistemi baxımından təlim fəaliyyəti prosesində tələbə şəxsiyyətinin idrak fəallığına məntiqi yaddasaxlama,yadasalma,məntiqi təfəkkür xüsusilə təsir edir.

**Məqsədi:** Tələbə gənclərin idrak fəaliyyətini müəyyənləşdirmək və təlimə təsirini öyrənmək.

**Elmi tədqiqat işi 6.** Tələbə qruplarında gender münasibətlərinin psixoloji xüsusiyyətləri

**Elmi tədqiqat işi üzrə çalışan əməkdaş:** Dosent Səxavət Əliyeva

**I mərhələ:** Gender münasibətlərinin nəzəri tədqiqi

**Aktuallığı:** Müasir dövrdə gender probleminə artan maraq, gender probleminin sosial-psixoloji aspektlərinin öyrənilməsi xüsusi aktuallıq kəsb edir.

**Alınmış nəticələr:** Tələbə qruplarında şəxsiyyətlərarası münasibətlərdə gender streotiplərinin təzahürünə rast gəlinir. Məlum oldu ki, kişi gender stereotipləri müasir gənclərin şüurunda qadınlardan daha çox qorunub saxlanılıb. Qadın obrazına gəlincə isə, o, intensiv surətdə dəyişir, belə ki, qadınlarda getdikcə daha çox maskulin xüsusiyyətlərin qazanılması müəyyən olundu.

**Məqsədi:** Gender problemi, siyasi-iqtisadi vəziyyətindən asılı olmayaraq, bütün olkələrdə təzahür edir. Gender streotiplərinin təzahürünə insanların şüurundə əsrlər boyu kök salmış adətlər, dini -mental baxışlar, ictimai nəzarətin aşağı olması və s. kimi faktorlar təsir göstərir.

**Elmi tədqiqat işi 7.** Fərdi-psixoloji xüsusiyyətlərin tələbələrdə depressiyanın yaranmasında rolu və aradan qaldırılmasında artterapiya və pozitiv psixoterapiya metodlarından istifadə edilməsi

**Elmi tədqiqat işi üzrə çalışan əməkdaş:** Baş müəllim Kamilə Kazımova

**I mərhələ:** Problemin elmi-nəzəri əsasları

**Aktuallığı:** Müasir dövrdə tələbələrdə depressiyanın yayılma səviyyəsinin artması tendensiyası özünü göstərir. Mövcud ədəbiyyatın təhlili göstərir ki, tələbələrdə depressiyanın yaranmasına səbəb olan amillərin içərisində tələbə şəxsiyyətini səciyyələndirən fərdi psixoloji xüsusiyyətlərin də rolu vardır. Belə ki, fərdi psixoloji xüsusiyyətlərin tələbələrin davranışındaki təzahürü, onların həyata baxışlarına təsiri, özgüvən hissinin formalaşmasında rolu və s. günümüz üçün xüsusi aktuallıq kəsb edən məsələlərdəndir.

Mövcud ədəbiyyata istinadən qeyd edə bilərik ki, temperamentin klassik təsnifatına əsasən (Hippokrat) depressiyaya ən çox meyilli tip melanxolikdir.

Aparılmış tədqiqatların təhlilinə əsasən məlum olmuşdur ki, tələbələrdə xarakter və depressiyanın yaranması arasında korrelyasiya mövcuddur. Belə ki, zəif xarakterə malik olan tələbələr depressiyaya daha çox meyillidirlər.

Psixoterapiya metodlarının təhlilinə əsasən qeyd edə bilərik ki, artterapiya metodlarından olan musiqi terapiyası, rəsm terapiyası, nağıl terapiyası və s. depressiyanın qarşısının alınmasında ən təsirli və güclü vasitələrdən biri hesab olunur. Eyni zamanda pozitiv düşüncəyə malik olan, situasiyadan asılı olmayaraq optimist əhval-ruhiyyəni daim saxlamağı bacaran tələbələr depressiyaya az düşürlər.

**Alınmış nəticələr:** Mövcud ədəbiyyatın təhlilinə əsasən qeyd edə bilərik ki, tələbələrdə fərdi-psixoloji xüsusiyyətlər, xüsusilə də temperamentin klassik təsnifatına əsasən (Hippokrat) olan melanxolik temperament tipinə malik olan bəzi tələbələr depressiyaya daha çox meyillidirlər.

**Məqsədi:** Fərdi-psixoloji xüsusiyyətlərin tələbələrdə depressiyanın yaranmasında rolunu araşdırmaq və aradan qaldırılmasında artterapiya və pozitiv psixoterapiya metodlarından istifadə etmək üçün tövsiyə hazırlamaq

**Elmi tədqiqat işi 8.** Şüurun yüksək səviyyələrinin inkişafı inteqrasiya olunmuş şəxsiyyətin formalaşmasının amili kimi

**Elmi tədqiqat işi üzrə çalışan əməkdaş:** Müəllim Mariam Mustafayeva

**I mərhələ:** Problemin psixoloji ədəbiyyatda öyrənilməsi

**Aktuallığı:** Sistemli-struktur yanaşma əsasında psixologiyada şəxsiyyətin strukturu modellərinin nəzəri-metodoloji təhlilinin xüsusiyyətlərini aşkar etmək və şəxsiyyətin strukturu, onun əsas xüsusiyyətləri, struktur komponentləri və inkişaf səviyyələri barədə yeni müəllif baxışını formalaşdırmaq müasir psixologiya elminin həm nəzəri, həmdə praktiki inkişafı üçün aktuallıq kəsb edir.

**Alınmış nəticələr:** Xarici ölkələrin, eləcə də Azərbaycan psixoloqlarının əsərlərində problemin tədqiqi məsələsiri öyrənilib .

**Məqsədi:** Şüurun yüksək səviyyələrinin strukturunu və inteqrasiya olunmuş şəxsiyyətin formalaşmasında onların rolunu tədqiq etmək.

**Elmi tədqiqat işi 9.** Azərbaycan ədəbiyyatında milli-etnik xarakter və psixologizm

**Elmi tədqiqat işi üzrə çalışan əməkdaş:** Müəllim Elşən Sadıqov

**I mərhələ:** Psixoloji ədəbiyyatın toplanması və təhlili

**Aktuallığı:** Azərbaycan ədəbiyyatı dərin psixoloji fikir və nümunələrlə zəngindir. Bu baxımdan ədəbiyyatımızda etnik-psixoloji problemlərin öyrənilməsi və millətin formalaşması zəminində təhlil edilməsi zəruridir. Azərbacanlılara xas olan etnik-psixoloji xüsusiyyətlər Azərbaycan ədəbiyyatinın klassiki Əbdürrəhim bəy Haqverdiyevın əsərlərində öz yerini tapmışdır. Ə.B.Haqverdiyevin yaradıcılığına həsr olunmuş əsərlərin təhlili ğöstərdi ki, psixoloji aspektdə əsərlərin araşdırılması aparılmayıb və millətin öz köklərini tanıması noqtəyi nəzərdən bu işin aparılması aktualdır.

**Məqsədi:** Bədii ədəbiyyatda əks olunmuş etnik-psixoloji problemlərin və etnik xarakterin

| | |
|---|---|
| | xüsusiyyətlərinin müəyyənləşdirilməsi |
| 2 | **Hesabat dövründə alınmış elmi nəticələr, onların yenilik dərəcəsi**<br>*Nəticələr səlis və konkret yazılmalıdır* |
| | **1.** Müxtəlif tipli narrativlər şəxsiyyətin formalaşması üçün alət rolunu oynayır. Narrativ mahiyyətcə təcrübənin linqvistik təsbitidir və hadisəni dərk etməyə imkan verir. Narrativ yaddaş materialına seçmə şəkildə yanaşır: ayrı-ayrı faktları birləşdirir, lazımsızları kənara qoyur, paralellər qurur, müxtəlif zamanların hadisələrinə aid xatirələri bir semantik bütövlükdə toplayır. Nəticədə 5 əsas konfliktli narrativ janrı fərqləndirilib: "melodram", "tragediya", "romantika", "apokaliptik" və "kiçik hadisələrin təqlidi". Bunlar münaqişənin müxtəlif mərhələləri ilə əlaqəli ola bilər. Melodram və apokaliptik janr münaqişənin kəskinləşməsi və müharibə ilə uyğundur; romantika kütləvi səfərbərlik ilə, tragediya və kiçik hadisələrin təqlidi isə münaqişənin gərginləşməsi və həlli ilə uyğundur.<br>**2**. Məktəb bullinqi destruktiv şəxsiyyətlərarası qarşılıqlı təsirin bir forması kimi başa düşülür. Bu zaman bir şəxs yaxud qrup buller kimi, psixoloji, fiziki baxımdan zəif olan digəri isə qurban kimi çıxış edərək, uzun müddət, sistematik olaraq fiziki, psixoloji, emosional zorakılığa və aqres-siyaya məruz qalır.Məktəbli bullinqinə məruz qalmış uşaqlarda depressiya səviyyəsi dəfələrlə yüksək, özünüqiymtləndirmə səviyyəsi aşağıdır. Onlar baş ağrısından, depressiya və həyəcanın müxtəlif simptomlarından, yuxu, əhval və iştahla bağlı pozuntulardan əziyyət çəkir, intihara cəhd edirlər. Bullinqin izləri bu uşaqlarda həyatlarının sonuna qədər mühafizə olunur, bəzi hallarda isə onlarda ciddi posttravmatik stress pozuntusunun inkişafına səbəb olur.<br>**3.** İnsanın ətraf aləmi yaddasaxlamasının,yadasalmasının,eyni zamanda tənqidi münasibətinin formalaşmasında təbii meyllərlə yanaşı həmçinin sosiallaşması, təhsili, tərbiyəsi yəni sosial mühitin təsiri vacib rol oynayır. Müəyyən olunmuşdur ki, məntiqi təfəkkür və məntiqi yaddasaxlama insanın özünü dərk etməsində, və obrazlı-emosional aləmində vacib idrak prosesləridir.<br>**4.** Qadınların cinayi davranışı sosial reallığın obyektiv və subyektiv amillərinin qarşılıqlı təsirləri ilə müəyyən edilir, onların arasında aparıcı rol ictimai nizam faktoru ilə müəyyən olunur. Müəyyən edilmişdir ki, müasir dövrümüzdə qadın cinayətləri cəmiyyətdə baş verən tarixi, iqtisadi, hüquqi, demoqrafik və digər dəyişikliklərdən birbaşa asılı olan sosial cəhətdən xarakterik xüsusiyyətlərə malikdir. Bu dəyişikliklər qadınların həyatının mikro-sosial atmosferində də aydın şəkildə əks olunur. Mikroiqtisadi mühitin mənfi təsiri qadınların həyatında müxtəlif tip cinayətlərin baş verməsinə səbəb olur ki,bu da həmçinin yaş, əmək fəaliyyəti, maliyyə vəziyyəti, ailə münasibətləri kimi müəyyən sosial-demoqrafik amillərlə müəyyən olunu<br>**5**. Gender streotiplərinin təzahürünə insanların şüurunda əsrlər boyu kök salmış adətlər, dini -mental baxışlar, ictimai nəzarətin aşağı olması və s. kimi faktorlar təsir göstərir.Kişi |

| | |
|---|---|
| | gender stereotipləri müasir gənclərin şüurunda qadınlardan daha çox qorunub saxlanılıb. Qadın obrazına gəlincə isə, o, intensiv surətdə dəyişir, belə ki, qadınlarda getdikcə daha çox maskulin xüsusiyyətlərin qazanılması müəyyən olundu. |
| **3** | **Hesabat dövründə alınmış ən mühüm elmi nəticələr**<br>*Ən mühüm nəticələr səlis və konkret yazılmalıdır* |
| | Yoxdur |
| **4** | **Mövzunun yerinə yetirilməsi zamanı istifadə olunan üsul(lar), cihaz(lar) və yanaşma(lar)** |
| | 1.Nəzəri analiz və sintez metodu. Araşdırılan mövzunun I mərhələsinin yerinə yetirilməsi zamanı daha çox elmi ədəbiyyatın nəzəri təhlili üsulundan istifadə edilmişdir.<br>2.R.S. Nemovun “Rəqəmsal sıralar” metodikası, F.Lezerin “Məntiqi əlaqəsi olmayan materialın yadda saxlanması” metodikası, “Məntiqi əlaqələr”, İQ testlərindən, Smirnovun, Ebbinhausun metodikaları.<br>6. Gender streotiplərini öyrənən metodikalardan istifadə olunmuşdur. |
| **5** | **a) Mövzu üzrə beynəlxalq jurnallarda çıxan məqalələr**<br>*Müəlliflərin ad və soyadları, jurnalın adı tam şəkildə yazılmalı;*<br>*Dərc olunmuş, qəbul olunmuş və ya çapa göndərilmişdir kimi göstərilməli;*<br>*Məqalələrin surətləri hesabata əlavə edilməli və mənbənin internetdəki linki göstərilməlidir* |
| | **Mövzudan kənar beynəlxalq jurnallarda çıxan məqalələr:**<br>1. Rəna Qədirova, R.R.Qaragözov Коллективная память как предмет психо-логического исследования: в качестве постановки проблемы. Вестник Омского университета. Серия: Психология. Омск, 2021, №2. С.34-39. (https://elibrary.ru/contents.asp?id=46362400) |
| | *b)* **Mövzu üzrə digər jurnallarda çıxan məqalələr**<br>*Müəlliflərin ad və soyadları tam şəkildə yazılmalı;*<br>*Dərc olunmuş, qəbul olunmuş və ya çapa göndərilmişdir kimi göstərilməli;*<br>*Məqalələrin surətləri hesabata əlavə edilməli və mənbənin internetdəki linki göstərilməlidir* |
| | ***1.*** Rəna Qədirova, Təranə Babayeva. Etnik mədəni müxtəliflik və multikulturalizm. Məqalə.Sosiologiya. Sosial psixologiya. Siyasət. (Elmi araşdırmalar jurnalı),Cild 1,№3. Bakı 2021.16-22 s.<br>***2.*** Elnarə Şəfiyeva, Sevinc Allahyarova, Aydan Səməndərova. Məktəbli mühitində bullinq probleminin əsas tədqiqi istiqamətləri / Bakı Universiteti xəbərləri. Sosial-Siyasi elmləri seriyası. Bakı, 2020 №3. səh:66-74*)* http://static.bsu.az/w1/1slayd/sosial- |

3-2020%20b5.pdf

3. Mirələm Vəliyev, Azər Mustafayev. Müxtəlif yaş mərhələlərində peşə özünütəyinetmənin formalaşması. BDU. Sosial və humanitar elmlərin müasir problemləri. Elmi əsərlər toplusu. Buraxılış № 27 (II hissə) Bakı, 2021. səh 172-181...\..\Jurnal 2021\MEQALE TOPLUSU 2021, 27saylı II HISSE .pdf
4. Mirələm Vəliyev, Azər Mustafayev. Müasir inkişaf mərhələsində qloballaşma şəraitində şəxsiyyətin özünü reallaşdırması. BDU. Sosial və humanitar elmlərin müasir problemləri. Elmi əsərlər toplusu. Buraxılış № 28 (I hissə) Bakı, 2021. Səh. 199-204..\..\MEQALE TOPLUSU 2021, 28saylı I HISSE (1) (1).pdf
5. Mirələm Vəliyev Azər Mustafayev. Müasir tədqiqatlarda imic probleminin bəzi aspektləri. BDU. Sosial və humanitar elmlərin müasir problemləri. Elmi əsərlər toplusu. Buraxılış № 28 (II hissə) Bakı, 2021. Səh.184-189..\..\Jurnal 2021\MEQALE TOPLUSU 2021, 28saylı II HISSe+.pdf
6. Təranə Babayeva, Günay Kərimi. Gənclərin sərvət meylinin təşəkkülünün bəzi psixoloji məsələləri Məqalə. Sosial və humanitar elmlərin müasir problemləri. Buraxılış №26 Bakı-2020 (II hissə)102-106.
7. Sevinc Quliyeva, Tamara Kuxareva. Peşə seciminə təsir edən amillər. BDU. Sosial və humanitar elmlərin müasir problemləri. Elmi əsərlər toplusu. Buraxılış № 26 (II hissə) Bakı, 2021. Səh 87-90
8. Sevinc Quliyeva. Ailə tərbiyəsinin uşaq şəxsiyyətinə təsiri. BDU. Sosial və humanitar elmlərin müasir problemləri. Elmi əsərlər toplusu. Buraxılış № 26 (II hissə) Bakı, 2021. Səh 87-90
9. Sevinc Quliyeva. Роль игры в психическом развитии дошкольника . BDU. Sosial və humanitar elmlərin müasir problemləri. Elmi əsərlər toplusu. Buraxılış №27, (III hissə). Bakı, 2021 s.94-97..\..\Jurnal 2021\MEQALE TOPLUSU 2021, 27saylı III HISSE .pdf
10. Səxavət Əliyeva. İdrak fəaliyyətində gender fərqləri // Psixologiya Jurnalı 1, Bakı-2020..\..\psixologiya_2020-1_russuz_2.pdf
11. Elşən Sadıqov. Nizami Gəncəvi yaradıcılığında şəxsiyyətlərarası münasibətlər.
12. Yamən Vəliyeva. Qadın məhkumların şəxsiyyəti və onun tədqiqinə əsas yanaşma/ Dil və ədəbiyyat Beynəlxalq elmi-nəzəri jurnal , № 3, Bakı – 2021. Səh 230-234 ..\..\Dil ve dedbiyyat-3(117).pdf

**Mövzudan kənar digər jurnallarda çıxan məqalələr:**

13. Rəna Qədirova, Təranə Babayeva. Психологический подход к проблеме чтения художественной литературы. Məqalə. Psixologiya jurnalı , № 1.2020, 3-13 s.
14. Aydan Səməndərova, Alışanlı Aytən. Məhkumların cinayət əməlinin qurbanları haqqında təsəvvürlərinin psixokorreksiyası, Sosial və humanitar elmlərin müasir problemləri. Elmi əsərlər toplusu. № 27 (III hissə). Bakı, 2021...\..\Jurnal sosial elmlər\MEQALE TOPLUSU 2021, 27saylı III HISSE .pdf
15. Sevinc Allahyarova, Hakan Seyhan. Yeniyetmələrdə təşviş pozuntusunun əsas

| | |
|---|---|
